

# Əsl qardaşlığın, müttəfiqliyin möhtəşəm nümunəsi

## *Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur*

Hazırda iki qardaş ölkənin əlaqələrinin dünyaya nümunə olan müttəfiqlik səviyyəsinə yüksəlməsi tarixi təməllərə söykənir. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə, qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın, ölkələrimizin bu bağlılığı hər iki dövlət başçısının çıxışlarında da hər zaman təsdiqlənir.

Azərbaycan Prezidenti İlham Əliyevin: "Mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz - iki qardaş ölkə öz siyasətimizlə bu birliyi möhkəmləndiririk" - fikirləri bir daha təsdiqləyir ki, "bir millət, iki dövlət" vəhdətini heç bir kənar qüvvə poza bilməz. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayır.

**(davamı 2-ci səhifədə)**



# Əsl qardaşlığın, müttəfiqliyin möhtəşəm nümunəsi

## *Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur*

**(əvvəli 1-ci səhifədə)**

Ulu öndər Heydər Əliyev tərəfindən möhkəm özüllər üzərində qurulmuş dostluq və qardaşlıq münasibətləri Prezident İlham Əliyevin siyasi xəttinin prioritetini təşkil edir. Ölkələrimiz arasında münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəlməsi dünyaya örnəkdir. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir, Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik" sözləri hər birimizə qürur və iftixar verir.

Atılan birgə qəti addımlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlər zəminində də əsl qardaşlıq nümayiş etdirmələrinin əməli göstəriciləri, mühüm nəticələridir. Prezident İlham Əliyev bütün beynəlxalq tədbirlərdə həmişə birmənalı şəkildə Türkiyə Cümhuriyyətinin qarşıya çıxan problemlərinin həllində qardaş ölkəyə birmənalı şəkildə dəstək verməyin əsl örnəyini nümayiş etdirmişdir. İlham Əliyev - Rəcəb Tayyib Ərdoğan birliyi və həmrəyliyi, dövlət başçılarının bir-birilərinə "qardaşım" deyərək müraciət etmələri xalqlarımız üçün də, dünya birliyi üçün də nümunədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, bu gün dünyada Azərbaycan və Türkiyə dövlətləri kimi əsl qardaş ölkələr göstərmək mümkün deyildir. Azərbaycan-Türkiyə həmrəyliyi və əməkdaşlığı qardaş ölkələr arasında olan münasibətlərin bütün sahələr üzrə inkişaf etdirilib daha da möhkəmləndirilməsinə uğurla xidmət etdiyi kimi, beynəlxalq aləmdə də sülh və əmin-amanlığın, təhlükəsizliyin, əməkdaşlığın tənzimlənməsində, regionda meydana çıxan problemlərin həllində mühüm əhəmiyyətə malikdir.

44 günlük Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana verdiyi siyasi-mənəvi dəstək isə xalqımız tərəfindən ən yüksək qiymətə layiq görüldü. Türkiyə dövləti, xalqı bütün dünyaya Azərbaycan ilə həmrəy olduqlarını nümayiş etdirdilər. Türkiyə İkinci Qarabağ müharibəsinin hər anını qardaş ölkə olaraq Azərbaycanla birgə yaşadı. Qarabağ müharibəsində əldə edilən şanlı Zəfər isə yalnız Azərbaycanın deyil, eləcə də Türkiyə və bütün türk dünyasının tarixi Qələbəsi kimi qiymətləndirildi. Türkiyə həmişə olduğu kimi, qardaşlarını Azərbaycanın haqlı savaşında da tək qoymayaraq bütün dünyaya Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu, bu haqq savaşında heç bir ölkənin Azərbaycana mane ola bilməyəcəyini bəyan etdi. Hələ Qarabağ hadisələrinin başladığı ilk vaxtlarda Türkiyənin Ermənistanla sərhədlərini bağlaması o vaxt Azərbaycana həmrəyliyin nümunəsi idi. Müharibənin ilk günlərindən Türkiyə Respublikasının Prezidenti açıqlamalar verdi ki, Türkiyə Azərbaycanın yanındadır. Bu tarixi Qələbədən sonra Türkiyə ilə Azərbaycan arasında imzalanan Şuşa Bəyannaməsi isə iki ölkə arasındakı birliyin daha da yüksək səviyyəyə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edən sənəddir. Bu, Azərbaycanın müstəqilliyi dövründə iki qardaş ölkə arasında imzalanan, hərbi təhlükəsizlik məsələlərini, onun müxtəlif parametrlərini göstərən ilk rəsmi sənəd kimi də əhəmiyyətlidir. Məhz bu baxımdan, Şuşa Bəyannaməsi tarixi önəm daşıyaraq regionda yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcını qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mayın 14-də qardaş ölkəyə işgüzar səfəri, Rize-Artvin Hava Limanının açılışında iştirakı, çıxışında qardaşlıq, həmrəylik və daha da gücləndirilmiş əməkdaşlıqdan bəhs etməsi, həmçinin Azərbaycan ərazilərinin işğaldan azad edilməsində Türkiyənin mənəvi və siyasi rolunu xüsusi vurğulaması hər iki ölkə ictimaiyyəti tərəfindən çox böyük coşqu ilə qarşılanıb. Azərbaycan Prezidenti Rize-Artvin Hava Limanının təntənəli açılış mərasimində vurğulayıb ki, otuzillik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxları üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyənin siyasi və mənəvi dəstəyini hiss edirdik, bu dəstək bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq.

Bütün beynəlxalq platformalarda həmişə bir-birini dəstəkləyən, istənilən məsələdə həmişə bir-birinə dayaq duran iki qardaş ölkə olan Azərbaycan və Türkiyənin qayğıları da eynidir. 2021-ci ilin isti yayının ən çox zərər vurduğu ölkələrdən biri də qardaş Türkiyə olmuşdu. Su qıtlığı ilə yanaşı, ölkədə meşə yanğınlarının sayı və miqyası da əvvəlki illərdən çox idi. Bütün təbii fəlakətlər, onların nəticələrinin aradan qaldırılması zamanı həmişə çiyin-çiyinə olan ölkələrimiz bu dəfə də bir-birini tək qoymadılar. Azərbaycan Prezidenti tərəfindən Fövqəladə Hallar Nazirliyinə meşə yanğınları ilə mübarizə aparmaq üçün mobil qrup, lazımi texnika göndərilməsi barədə tapşırıq verildi. Bu addım bir qardaşın çətin vəziyyətə düşən qardaşının köməyinə çatması kimi qiymətləndirilməlidir və bu, belədir. Azərbaycanın Türkiyəyə və ya Türkiyənin dar gündə Azərbaycana etdiyi yardım bir protokol, etiket deyil, qardaşın qardaşa köməyi, yardımıdır. O, çətin günlərdə bütün Azərbaycan xalqı və dövləti Türkiyəni bürüyən dəhşətli yanğınları öz qəlbində hiss edir və əlindən gələn bütün vasitələrlə qardaş ölkəyə dəstək verməyə çalışırdı.

Hazırda dövlətimiz tərəfindən Qarabağda aparılan bərpa-yenidənqurma işlərində də Türkiyə yaxından iştirak edir, hər zaman olduğu kimi, Azərbaycanla həmrəyliyini nümayiş etdirir. Türkiyə ilə Azərbaycanın apardığı siyasət bölgədə sabitlik və sülhün bərqərar olması, xalqların birgə və rahat yaşamasına xidmət edir. Postmünaqişə dövründə düşmənin xaraba qoyduğu işğaldan azad olunmuş torpaqlarımızda indi geniş quruculuq, bərpa işləri aparılır. Həmişəki kimi, bu gün də Türkiyə yanımızdadır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Türkiyə şirkətləri Qarabağın bərpası işində bizimlə bərabər çalışır. O cümlədən Rize-Artvin Hava Limanını ərsəyə gətirən şirkət də Qarabağda bərpa-quruculuq işlərində yaxından iştirak edir. Ölkə başçımız qürurla bildirib: "Bu gün də biz bir yerdəyik, Qarabağın bərpası işində bərabər, çiyin-çiyinə çalışırıq. Bir çox Türkiyə şirkətləri, o cümlədən xarüqə adlandırılan bu gözəl hava limanını inşa edən şirkət də Qarabağda bərpa işləri ilə məşğuldur. Bizim minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın bərpası ilə bağlı öz işini görür, öz sözünü deyir".

Erməni işğalından azad edilən Qarabağ və Şərqi Zəngəzurun bərpa prosesinə qoşulan qardaş ölkə şirkətləri tərəfindən hazırda əbədi və əzəli ərazilərimizdə genişmiqyaslı layihələr reallaşdırılır. Yeri gəlmişkən, xatırladaq ki, Prezident İlham Əliyev düşməndən təmizlənən torpaqlarda tikinti-quruculuq, yenidənqurma layihələrinin icrasına başlanmazdan əvvəl bu məsələdə dost ölkələrin fəaliyyətinə daha çox diqqət yetiriləcəyini xüsusi vurğulayırdı. Bütün bunlardan sonra ötən müddətdə təbii ki, qardaş ölkə Qarabağın bərpasında da köməyini əsirgəmədi. İlk müqavilələrin Türkiyə şirkətləri ilə imzalanması da bunun bariz ifadəsi idi.

**Mustafa KAMAL,**
**"Respublika".**